# Vaqif Poeziya Günləri şairin doğulduğu Qazax rayonundan başlayıb





**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Azərbaycan Yazıçılar Birliyi (AYB) və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri poeziyasevərləri yenidən bir araya gətirib.**

İyulun 15-də Gəncə şəhərində, iyulun 16-da isə Ağdam rayonunda davam edəcək Poeziya Günləri iyulun 17-18-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yekunlaşacaq. Şuşada baş tutacaq tədbirlərdə tanınmış ədəbiyyat və incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak edəcək.

Qazax şəhərinin mərkəzində Fəxri Qazaxlılar parkında Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin heykəlinin qarşısında təşkil olunmuş bayram tədbirində rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, icra aparatının məsul şəxsləri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa İttifaqı Parlament Əməkdaşlıq Komitəsindəki nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi Səlim Babullaoğlu, AYB-də poeziya sektorunun rəhbəri İbrahim İlyaslı, professor, tənqidçi, ədəbiyyatşünas Rüstəm Kamal, gənc şair, "Ulduz" jurnalının şöbə müdiri Taleh Mansur, şairə Xatirə Fərəcli, şəhid ailələri, ziyalılar, təhsil, mədəniyyət işçiləri, ictimaiyyət iştirak ediblər.

Tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyi Qazax Bölməsinin sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal Vaqif Poeziya Günlərinin təməlinin Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Şuşada qoyulduğunu bildirib. Məhz həmin tarixdə Ulu Öndərin iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsi və Poeziya Evinin təntənəli şəkildə açıldığı və onun tapşırığı ilə Vaqif Poeziya Günlərinin keçirilməsinə qərar verildiyi qeyd edilib. Şair vurğulayıb ki, 1991-ci ilə qədər hər il təşkil olunan poeziya bayramı ənənəvi olaraq şairin Vətəni Qazaxdan başlayır və Şuşanın əsrarəngiz Cıdır düzündə başa çatırdı. Şuşa düşmən tapdağında olduğu dövrdə də Vaqif Poeziya Günlərinin Qazaxda keçirildiyi, əsasını Ulu Öndərin qoyduğu ənənənin davam etdirildiyi bildirilib. B.Vüsal Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şanlı Qələbəsi nəticəsində Şuşa şəhəri işğaldan azad olunduqdan sonra Vaqif Poeziya Günlərinin yenidən Azərbaycanın mədəniyyət paytaxtında keçirildiyini, hər il olduğu kimi, bu il də Vaqif Poeziya Günlərinin poeziya, ədəbiyyat və mədəniyyət həvəskarlarına unudulmaz anlar yaşadacağını diqqətə çatdırıb.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tarixi şəxsiyyətlərin, şairlərin, aşıqların yurdu olan, respublikanın qərb qapısı sayılan Qazaxın tarixin müxtəlif mərhələlərində Azərbaycan ədəbiyyatına incilər bəxş etdiyini vurğulayıb. Məhz bu səbəbdən Qazaxın tam haqqı çatır ki, bu cür möhtəşəm tədbirlərə, Vaqif Poeziya Günlərinə, poeziya bayramlarına, yubileylərə ev sahibliyi etsin. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Azərbaycanda üç məşhur şairin - Nizami Gəncəvi, Molla Pənah Vaqif və Hüseyn Cavidin məzarları üstündə məqbərənin tikilməsi məhz ədəbiyyatımıza olan diqqət və qayğının bariz nümunəsidir. Qeyd edilib ki, Azərbaycan Ordusunun rəşadəti sayəsində 44 gün ərzində torpaqlarımız düşmən tapdağından azad olundu. Azad olunmuş ərazilərimizdə, Şuşada, o cümlədən Prezident İlham Əliyevin göstərişinə əsasən Vaqifin məqbərəsində təmir-bərpa işlərinə start verildi.

Milli Məclisin deputatı Səməd Seyidov poeziya bayramında iştirak etməyin qürurunu yaşadığını söyləyib. Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Səməd Vurğun müasir Azərbaycan dilini formalaşdıran dahilərdir. Ona görə də onlar hər zaman bizimlə yaşayacaqlar. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, öz tarixinə, mənəviyyatına sahib çıxa bilir. Milli-mənəvi dəyərlərə sahib çıxan ölkə rəhbəri var. Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın illər öncə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ənənəni, Vaqif Poeziya Günlərini bu gün də yaşatması ölkə rəhbərinin, dövlətimizin öz mənəviyyatına sahib çıxması deməkdir. Tədbirdə Mədəniyyət nazirinin müavini Fərid Cəfərov, AYB-nin katibi Səlim Babullaoğlu çıxış etmişlər. Poeziya bayramı bədii hissə ilə davam etdirilib.

Azərbaycan Aşıqlar Birliyi Qazax filialının aşıqlarının təqdimatında konsert proqramı təşkil olunub.

**Vəli VƏLİYEV,**
**"Respublika".**